*UOT 37.0*

***Xuraman Rəcəb qızı Səlimova***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*Təhsilin iqtisadiyyatı və idarə olunması şöbəsinin böyük elmi işçisi*

# MƏKTƏB-ŞAGİRD-VALİDEYN MÜNASİBƏTLƏRİNİN TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİRİ

***Хураман Раджаб гызы Салимова***
*старший научный сотрудник отдела Экономики и управления образованием*
*Института Образования Азербайджанской Республики*

# ВЛИЯНИЕ ОТНОШЕНИЙ ШКОЛА-УЧЕНИК-РОДИТЕЛЬ НА КАЧЕСТВО ОБРАЗОВАНИЯ

***Khuraman Racab Salimova***
*senior researcher of department of Economics and educational management of*
*Institute of Education of the Republic of Azerbaijan*

# THE EFFECT OF SCHOOL-STUDENT-PARENT RELATIONSHIPS ON THE QUALITY OF EDUCATION

**Xülasə.** Məqalədə Dayanıqlı İnkişaf Məqsədləri dördüncüsü olan təhsildə keyfiyyət məsələsindən bəhs olunur. Təhsildə keyfiyyətin əldə olunmasının optimal yollarında biri məktəb-şagird-valideyn münasibətləri təhlil olunur. Məktəb-şagird-valideyn üçbucağında əməkdaşlıq və vətəndaş məmnunluğu hər zaman aktual mövzu kimi cəmiyyətin diqqət mərkəzində olan və ən çox müzakirə olunan məsələlər sırasındadır.
***Açar sözlər:*** *keyfiyyət göstəriciləri, vətəndaş məmnunluğu, pedaqoji heyət, pedaqoji idarəetmə, təhsil idarəediciləri*

**Резюме.** В статье рассматривается вопрос качества в образовании, который является четвертой из целей устойчивого развития. Одним из оптимальных способов достижения качества образования является анализ отношений школа-ученик-родитель. Сотрудничество и удовлетворенность граждан в треугольнике школа-ученик-родитель всегда актуальна и является одной из самых обсуждаемых в обществе.
***Ключевые слова***: *показатели качества, удовлетворенность граждан, преподавательский состав, педагогическое управление, менеджеры образования*

**Summary.** The article deals with the issue of quality in education, which is the fourth of the Sustainable Development Goals. One of the optimal ways to achieve quality in education is to analyze school-student-parent relations. Cooperation and citizen satisfaction in the school-student-parent triangle is always a topical issue and is one of the most discussed issues in societ
***Keywords:*** *quality indicators, citizen satisfaction, teaching staff, pedagogical management, educational managers*

Qlobal inkişafın dayanıqlığını təmin edilməsi yollarından biri yaranan qlobal problemlərin aradan qaldırılması naminə savadlı mütəxəssislər yetişdirməkdir. Buna təhsilin keyfiyyətinin yüksəldilməsi ilə nail olmaq mümkündür. Keyfiyyətli təhsil dünya liderləri və alimləri qarşısında duran ən ümdə vəzifələrdən biridir. Bu vəzifənin yerinə yetirilməsi məqsədi onları vaxtaşırı qabaqlayıcı tədbirlər görməyə, strateji planlar hazırlamaqda səfərbər olmağa, yaranan problemlərin həlli üçün birgə layihələr, normativ-hüquqi sənədlər hazırlamağa sövq edir. Qlo-

bal məsələlərin həllinə yönələn sənədlərdən biri olan "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik" BMT-nin Dayanıqlı İnkişaf Sammitində imzalanmış 2015-ci ilin 25 sentyabr tarixli qətnaməsidir (In 2015, World leaders agreed to 17 Global Goals. https://www.globalgoals).

Ölkəmiz də Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulmuşdur. Minilliyin inkişaf məqsədlərinin davamı olan bu sənəd 17 məqsədi əhatə edir. 4-cü məqsəd 10 hədəfdən ibarət olan "Hər kəs üçün keyfiyyətli təhsili təmin etmək və ömürboyu təhsili təşviq etmək prinsipini rəhbər tutaraq keyfiyyətli təhsilin təmin olunmasını nəzərdə tutur" 15 il ərzində "heç kəsi kənarda qoymamaq" prinsipi ilə "qlobal məqsədlər"ə nail olmaq üçün qüvvələri səfərbər etməyi hədəfləyir (Goal 4: Qualıty Educatıon. https: // data.unicef.org/sdgs/goal-4-quality-education).

Keyfiyyətli təhsilin təmin olunması üçün öyrənmə mühitinin və şəraitinin günün tələbləri səviyyəsində qurulması vacibdir. Keyfiyyətli təhsilin əldə olunmasına müsbət auralı mühit ciddi təsir göstərir. Məktəb mühitinin mühüm tərkib hissələrindən biri olan məktəb-şagird-valideyn münasibətlərinin yaradılması və mövcud əməkdaşlıqdan səmərəli istifadə imkanlarının reallaşdırılması isə pedaqoji heyətin idarəetmə səriştəsindən asılıdır. Təhsildə səriştəli yanaşma təlim nailiyyətlərinə ciddi təsir göstərir, tədris-təlim prosesinin keyfiyyətinin yüksəldilməsi və səmərəli idarəetmə modernləşdirilmiş əsas strateji istiqamətlərdən olub, pedaqoji-psixoloji təhlilin aparılmasını ön plana çəkir. Şagirdin sosiallaşması, təhsil və əmək fəaliyyəti mərhələlərində də öz təsirini göstərir.

"Təhsil mühiti dinamik və dəyişkən xarakterlidir. Ona görə də təhsilin keyfiyyətinin təminatına nail olmaq üçün təhsil mühitinin hər dövrün tələbinə, o cümlədən ölkə miqyaslı sosial-iqtisadı tələblərə cavab verən mexanizmlərlə yanaşı, qlobal dünyanın rəqabətinə cavab verən mexanizmlərə uyğun təşkil olunması nəzərdə tutulur" (Əsədova İ.). Məktəb-şagird-valideyn münasibətlər humanistliyə, milli və ümumbəşəri dəyərlərin dialektik vəhdətinin təmin edilməsinə söykənən dünyəvi təhsil sisteminin inkişaf etdirilməsinə yönəlir. Məktəb-şagird-valideyn üçbucağında qarşılıqlı xoşməramlı münasibətlər həm də şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyünü prioritet kimi qəbul edən təhsil sahəsində dövlət siyasətinin əsas prinsiplərinə əsaslanılır" (Təhsil haqqında" Azərbaycan Respublikasının Qanun, Bakı, 2009).

Təhsil müəssisələrində yeni nəslə elmi bilik, bacarıq və vərdişlərlə yanaşı, ünsiyyət, etik davranış vərdişləri, həyati bacarıqlar, sosial adaptasiya, xarakterik cəhətlər və s. aşılanır. Başqa sözlə, təlim və tərbiyənin inteqrativliyi təmin olunur. Müəllim-şagird münasibətlərinin düzgün qurulmaması müəllim-şagird-valideyn və məktəb-şagird-valideyn münaqişələrinə səbəb olur. Nəticədə təlim-tərbiyənin keyfiyyət göstəricilərinə və gələcək nəslin vətəndaş kimi formalaşmasına ciddi təsir edir.

Müəllim-şagird-valideyn münasibətləri qarşılıqlı anlaşmanı şərtləndirən şəxsiyyətlərarsı münasibətlərdir. Məktəb iki başlıca məqsədə xidmət edir: şagirdlərə təhsil fənləri üzrə məzmun standartlarını reallaşmasını təmin etmək və şagirdləri şəxsiyyət kimi yetişməsinə nail olmaq. Məktəb-şagird, məktəb-valideyn münasibətləri müəllim-şagird münasibətlərindən başlanılır və qaynaqlanır. Bu münasibətlərin məmnun qurulması, tənzimlənməsi bir neçə istiqamət üzrə yönəldilməlidir:

- ➢ yeni işə qəbul prosesində müəllim kadrların seçilməsi;
- ➢ hal-hazırda pedaqoji fəaliyyət göstərən pedaqoji heyətin pedaqoji qabiliyyətlərinin təkmilləşməsi;
- ➢ şagird və valideyn kollektivlərinin maarifləndirməsi.

Məktəb rəhbərliyi və müəllimlər şagirdlərlə sağlam ünsiyyət və münasibət qura bilmək üçün əsasən aşağıdakı mövzulara diqqət etməli və aktual saxlamalıdır:

***İnam***. İstər təlim zamanı, istərsə də sosial və davranış problemlər yaranan zaman pedaqoji heyətin onu dinləyəcəyinə və anlayacağına əmin olmalıdır. Mümkün olduğu halda problemin həlli zamanı şagirdin güvənə biləcəyi müəllim dəstəyi, məktəb mühiti formalaşmalıdır. İnam psixoloji qabiliyyətdir.

***Tərəfdaşlıq.*** Şagird və valideyn məktəbin, müəllimlərin məktəb-şagird-valideyn tərəfdaşlığı yaradılmalıdır. Şagird və valideyn məktəbin bütün ictimai işlərində iştirak etməyə, məktəb-şagird-valideyn üçbucağı sosial qarşılıqlı əlaqələr imkanı verilməlidir. Bu zaman müəllimin təqdimat qabiliyyəti əhəmiyyətə malikdir.

***Empatiya***. Məktəbdə və ya sinifdə hansısa səbəbdən yaranan müəyyən vəziyyətlərdə adi vaxtlardan fərqli mühitinə görə davranışlar dəyişdirilməsi məqsədmüvafiqdir. Məsələn, bəzən uşaq dərsi dinləmək istəmir. Bu halda, dərs proqramının formatını dəyişmək, yeri gəldikcə, qısa oyunlarla təlimi təşkil etmək olar. Empatiya vasitəsi ilə müəllim şagirdə proqram materialını ötürmə ustalığı nümayiş etdirdiyindən bunu müəllimin metodiki səriştə, didaktik qabiliyyətlər sırasına aid etmək olar.

Pedaqoji qabiliyyətləri aşağıdakı sxemlə xarakterizə etmək olar:




***Akademik qabiliyyət*** – ixtisas bilikləri, elmin son nailiyyətlərini öyrənmək və şagirdlərə çatdırmaqdır.

***Metodiki səriştə (didaktik qabiliyyət)*** – öyrətmə bacarığı, pedaqoji-metodik ustalıqdır.

***Kommunikativ (ünsiyyət) qabiliyyət*** – düzgün ünsiyyət yaratmaq, demokratik ünsiyyət üslubunda, hər bir şagirdə, valideynə, həmçinin həmkarlarına fərdi yanaşma bacarığıdır.

***Konstruktiv qabiliyyət*** – pedaqoji fəaliyyəti düzgün planlaşdırmaq, mövcud vəziyyəti təhlil edərək qarşıdakı tədris ili üçün proqnozlaşdırma aparmaq, görüləcək işləri planlaşdırmaq, yarana biləcək çətinlikləri əvvəlcədən təmin etməklə qabaqlayıcı tədbirlər görməkdir.

***Psixoloqluq qabiliyyəti*** – şagird və valideynlərin hansı tipdən olduğunu müəyyən etməklə intensivliyin, təsirə cavabvermə sürətinin dinamik xarakteristikalarının emosional qıcıqlanma və tarazlıq dərəcəsini, ətraf mühitə uyğunlaşma xüsusiyyətlərini şərtləndirən temperament tiplərini bilməli və bu xüsusiyyətləri nəzərə alaraq davranmasıdır (Fallanalyse E., 2020).

***Şagirdlərin təqdimatı qabiliyyəti*** **-** peşəkar müəllim hər şagirdin elmi bilikləri qavrama qabiliyyəti ilə yanaşı, onun xüsusi istedadı olub-olmadığı, xarakteri, təlim nailiyyətlərində geriləmələrin səbəbini, tərbiyəsi və s. kimi məsələlərlə bağlı qeydlər aparır. Bütün bunları ümumiləşdirərək müəllim şagirdi məktəb rəhbərliyinə, məktəb psixoloquna, UBR, tərbiyə işləri üzrə direktor müavininə təqdim etməklə onların məktəb tədbirlərində və layihələrində, o cümlədən, məktəbdənkənar tədbirlərdə iştirakını dəstəkləmiş olur.

***İradi-emosional qabiliyyət*** – müəllimin özünü, hisslərini düzgün idarə etməkdə, mülayimlik və ciddiliyi uzlaşdırmaqda, səbirli olmaqla ifadə olunur.

**Problemin aktuallığı.** Pedaqoji idarəetmədə müəllim-şagird-valideyn münasibətləri bütün dövrlərdə aktual olub, həssas yanaşma tələb edən mövzulardan biridir. Bu münasibətlər müzakirə dairəsini genişləndirərərək KTV-lərdə, xüsusən, sosial şəbəkələrdə qızğın mübahisələrlə müşahidə olunur. Belə halların qarşısını almaq daha səriştəli və peşəkar təhsil idarəedicilərinin, pedaqoji heyətin formalaşmasını gündəmə gətirir.

**Problemin elmi yeniliyi.** Məqalənin elm yeniliyi məktəb-şagird-valideyn münasibətlərinin tənzimlənməsi ilə təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olunması imkanıdır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə ümumi təhsil müəssisələrinin təhsil idarəediciləri və müəllimləri üçün praktik əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı Bakı şəhəri, 6 oktyabr 2016-cı il
2. Əsədova İ.M. Ümumtəhsil məktəblərində pedaqoji kollektivin peş89əkarlığının inkişafının idarə olunması. Təhsilin innovativ idarəolunmasının problemləri. Bakı, 2020, 187 s.
3. İlyasov M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri Monoqrafiya. Bakı: Elm və təhsil, 2018.
4. Fallanalyse E. Kommunikation im Unterricht und die Lehrer-Schüler-Beziehung Term Paper, 2020.
5. Повестка дня в области устойчивого развития. 17 целей для людей, для нашей планеты. 2015. https://www.un.org/sustainabledevelopment/ru
6. In 2015, World leaders agreed to 17 Global Goals. https://www.globalgoals.
7. Goal 4: Qualıty Educatıon. https://data.unicef.org/sdgs/goal-4-quality-education

**E-mail:** xuraman.salimova@mail.ru

**Rəyçilər:** *ped.ü. elm. dok.***,** *prof.* **İ.H. Cəbrayılov,**
*ped.ü.fəl.dok.,* dos. **A.H. Hacıyev**
**Redaksiyaya daxil olub: 20.09.2023**